# "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 29.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin Qanunun 3.3-cü maddəsində, 7.1-ci maddəsinin üçüncü cümləsində, 14.3-cü, 15.1-ci, 15.2-ci, 16.1-ci, 19.3-cü, 19.4-cü, 19.5-ci, 31.2-ci və 32-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini, habelə 12.3-cü maddəsində nəzərdə tutulmuş sazişin hazırlanması üçün danışıqların aparılması və bağlanması səlahiyyətini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;[1]

2.3. həmin Qanunun 29.4-cü və 31.6-cı maddələrinin birinci cümlələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;[2]

2.4. həmin Qanunun 24-1.5-ci maddəsində nəzərdə tutulmuş qeyri-hökumət təşkilatının qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatları müəyyən edən "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, maliyyə hesabatı təqdim olunan "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini isə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirirlər.[3]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 4 oktyabr 2000-ci il
№ 401

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 21 dekabr 2009-cu il tarixli **200** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 25 dekabr 2009-cu il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 12, maddə 988)**
2. 12 noyabr 2010-cu il tarixli **350** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 13 noyabr 2010-cu il, № 251**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 11, maddə 966)**
3. 24 iyul 2013-cü il tarixli **943** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 25 iyul 2013-cü il, № 161)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 12 noyabr 2010-cu il tarixli **350** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 13 noyabr 2010-cu il, № 251**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 11, maddə 966)** ilə 2.2-ci bəndində "**aparılması**" sözündən sonra "**və bağlanması**" sözləri əlavə edilmişdir.

[2] 21 dekabr 2009-cu il tarixli **200** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 25 dekabr 2009-cu il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 12, maddə 988)** ilə 2-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü, 14.3-cü, 15.1-ci, 15.2-ci, 16.1-ci, 19.3-cü, 19.4-cü, 19.5-ci, 31.2-ci və 32-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.~~

[3] 24 iyul 2013-cü il tarixli **943** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 25 iyul 2013-cü il, № 161)** ilə 2.3-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və hissəyə 2.4-cü bənd əlavə edilmişdir.